Azərbaycan Respublikasının Prezidenti
yanında Ali Attestasiya Komissiyası
Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il
tarixli qərarı ilə təsdiq edilmişdir.

# DİSSERTASİYA ŞURALARI NƏZDİNDƏ ELMİ SEMİNARIN FƏALİYYƏTİNİN TƏŞKİLİ

# Q A Y D A S I

1. “Dissertasiya şuraları nəzdində elmi seminarın fəaliyyətinin təşkili qaydası” (bundan sonra - Qayda) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin 5.21-ci bəndinə uyğun hazırlanmışdır.

2. Dissertasiya şuraları nəzdində elmi seminar (bundan sonra – elmi seminar) dissertasiya şurasının yaradıldığı elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi rəhbərinin (onu əvəz edən şəxsin) əmri ilə, dissertasiya şurasında təmsil olunan hər bir ixtisas üzrə elmi dərəcəsi olan azı beş mütəxəssisdən ibarət tərkibdə olmaqla, ayrılıqda yaradılır.

3. Elmi seminarın yaradılması haqqında əmrdə elmi seminarın sədri, katibi və digər üzvlərinin adı, atasının adı, soyadı, ixtisasının şifri və adı, elmi dərəcəsi, elmi adı, iş yeri və vəzifəsi qeyd edilməlidir.

4. Elmi seminarın tərkibində müvafiq ixtisas üzrə elmlər doktorlarının sayını təmin etmək mümkün olmadıqda, həmin ixtisas üzrə elmi və elmi-pedaqoji fəaliyyətə görə professor elmi adı almış fəlsəfə doktorları, o cümlədən mədəniyyət, incəsənət, memarlıq, hərbi, bədən tərbiyəsi və idman sahələrində uzun müddət qüsursuz çalışan və əhəmiyyətli nailiyyətlər əldə etmiş, lakin elmi dərəcəsi olmayan professor elmi adı almış elmi və elmi-pedaqoji kadrlar elmlər doktorlarını əvəz edə bilərlər.

5. Elmi seminarın iclası elmi seminarın azı beş üzvü iştirak etdikdə səlahiyyətli sayılır. Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə hər bir ixtisas üzrə seminar üzvlərinin sayı beşdən az olmamalıdır.

6. Fəlsəfə doktoru dissertasiyalarının müdafiəsi üçün təşkil olunan elmi seminarlarda səsvermə hüququ olan azı iki elmlər doktoru, elmlər doktoru dissertasiyalarının müdafiəsi üçün təşkil olunan elmi seminarlarda səsvermə hüququ olan azı üç elmlər doktoru iştirak etməlidir.

7. Elmi seminarın sədri müvafiq ixtisas üzrə dissertasiya şurasının üzvü olan elmlər doktoru təyin edilir.

8. Elmi seminarın elmi katibi müvafiq ixtisas üzrə elmi dərəcəsi olan mütəxəssis, o cümlədən mədəniyyət, incəsənət, memarlıq, hərbi, bədən tərbiyəsi və idman sahələrində uzun müddət qüsursuz çalışan və əhəmiyyətli nailiyyətlər əldə etmiş, lakin elmi dərəcəsi olmayan elmi ad almış elmi və pedaqoji kadr təyin edilir.

9. Komissiyanın Rəyasət Heyətinin sədri və üzvləri, Komissiya Aparatının əməkdaşları, ekspert şuralarının sədrləri və müavinləri, dissertasiya şurasının sədri və elmi katibi, elmi dərəcələr verilməsində fəaliyyətinə Komissiyanın məhdudiyyət qoyduğu şəxslər elmi seminarın üzvü ola bilməzlər.

10. Elmi seminarın sədri elmi seminarın keçiriləcəyi yeri, tarixi, vaxtı və müzakirə olunan dissertasiya üzrə rəyçiləri təyin edir.

11. Elmi seminarın katibi elmi seminarın keçiriləcəyi yer, tarix və vaxt barədə elmi seminar üzvlərini və iddiaçını məlumatlandırır, müzakirə üçün təqdim olunmuş dissertasiyanı və avtoreferatın layihəsini rəyçilərə, dissertasiyanın və avtoreferatın layihəsinin elektron versiyasını elmi seminarın üzvlərinə çatdırır, seminara daxil olmuş rəyləri iddiaçıya təqdim edir və elmi seminarın protokolunu hazırlayır.

12. Elmi seminarın sədri və ya elmi katibi iclasda iştirak edə bilmədikdə seminarın iclası təxirə salınır.

13. Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə dissertasiya işi uyğun ixtisaslar üzrə fəaliyyət göstərən elmi seminarların birgə iclasında müzakirə

olunur. Elmi seminarı dissertasiya mövzusunun birinci qeyd olunan ixtisası üzrə fəaliyyət göstərən seminarın sədri aparır.

14. Dissertasiya mövzusu iki ixtisası əhatə etdikdə elmi seminarın protokolunu dissertasiya mövzusunun birinci qeyd olunan ixtisası üzrə fəaliyyət göstərən seminarın elmi katibi hazırlayır.

15. Dissertasiya şurasının nəzdində uyğun ixtisas üzrə elmi seminar mövcud olmadığı halda dissertasiya şurasının yaradıldığı elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi rəhbərinin (onu əvəz edən şəxsin) əmri ilə müvafiq mütəxəssislərdən ibarət birdəfəlik elmi seminar yaradılır.

16. Fəlsəfə doktoru dissertasiyasının müzakirəsi dissertasiya və müvafiq materiallar elmi seminara təqdim ediləndən sonra iki ay müddətində, elmlər doktoru dissertasiyasının müzakirəsi isə dissertasiya və müvafiq materiallar elmi seminara təqdim ediləndən sonra üç ay müddətində keçirilməlidir.

17. Elmi seminarda müzakirə zamanı fəlsəfə doktoru dissertasiyaları üzrə iki (azı bir elmlər doktoru, müstəsna hallarda iki fəlsəfə doktoru), elmlər doktoru dissertasiyaları üzrə üç (azı iki elmlər doktoru) rəyçi təyin edilir.

18. Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə, elmi seminarda müzakirə zamanı fəlsəfə doktoru dissertasiyası üzrə hər bir ixtisas üçün bir elmlər doktoru və ya iki fəlsəfə doktoru, elmlər doktoru dissertasiyası üzrə hər bir ixtisas üçün azı bir elmlər doktoru olmaqla iki rəyçi təyin edilir.

19. Rəyçi dissertasiyanın mövzusunun aktuallığı, tədqiqatın məqsədi və obyekti ilə bağlı məsələlərə münasibət bildirməli və dissertasiyanın "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 3.1-ci və ya 3.2-ci, iddiaçının dərc olunmuş elmi əsərlərinin 2.17-ci və ya 2.18-ci bəndlərinin tələblərinə uyğun olub-olmadığını, iddiaçının dissertsiyasında, avtoreferatın layihəsində və dissertasiyanın əsas elmi nəticələrini əks etdirən dərc olunmuş işlərində müəllifinə və mənbəyinə istinad vermədən digər müəlliflərin materiallarından istifadə edib-etmədiyini müəyyən etməlidir.

20. Rəyçilər imzalanmış və elmi seminarın fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin elmi katibi tərəfindən təsdiq olunmuş rəylərini seminarın keçirilməsinə azı beş gün qalmış elmi seminarın katibinə təqdim edirlər.

21. Elmi seminarın katibi elmi seminarın keçirilməsinə azı üç gün qalmış seminara daxil olmuş rəyləri iddiaçıya təqdim edir.

22. Elmi seminarda bir gün ərzində iki fəlsəfə doktoru və ya bir elmlər doktoru dissertasiyasının müzakirəsi keçirilə bilər.

23. Elmi seminarda digər şəxslər, o cümlədən dissertasiya şurasının üzvləri səsvermə hüququ olmadan iştirak edə bilərlər.

24. İddiaçı və ya onun elmi rəhbəri (elmi məsləhətçisi) elmi seminarın üzvü olduqda onlar, dissertasiyasının müzakirəsi keçirilən iclasda elmi seminar üzvlərinin siyahısına daxil edilmir və müzakirənin yekunu üzrə səsvermədə iştirak etmir.

25. Elmi seminarda iştirakçılara iddiaçının dərc olunmuş elmi əsərləri ilə tanış olmaq üçün şərait yaradılır.

26. Elmi seminarın gedişinin videoçəkilişi aparılaraq elektron daşıyıcıda saxlanılır.

27. Elmi seminarda dissertasiyanın müzakirəsi aşağıdakı ardıcıllıqla keçirilir:

27.1. Elmi seminarın iclasının açılışı zamanı sədr iştiraketmə vərəqi (Əlavə 2.1) əsasında seminar üzvlərinə iclasın səlahiyyətli olduğunu elan edir;

27.2. Elmi seminarın sədri iclasın açılışından sonra dissertasiya işinin müzakirəsinə dair (iddia olunan elmi dərəcə, elm sahəsi, ixtisasın şifri və adı, dissertasiyanın mövzusu, iddiaçı, elmi rəhbər və ya elmi məsləhətçi və rəyçilər barədə) məlumat verir;

27.3. Elmi seminarın sədri iddiaçıya dissertasiyanın əsas məzmununu təqdim etmək üçün söz verir;

27.4. İddiaçı dissertasiyanın əsas məzmununu təqdim etdikdən sonra rəyçilərə söz verilir;

27.5. Rəyçilərin hər birinin çıxışından sonra onların iradlarına münasibət bildirmək üçün iddiaçıya söz verilir;

27.6. Rəyçilərin iradlarına münasibət bildirdikdən sonra seminarın iştirakçıları iddiaçıya dissertasiya işi ilə bağlı sual verirlər;

27.7. İddiaçı bütün sualları cavablandırdıqdan sonra onun iştirakı ilə aparılan müzakirələr bitir;

27.8. İddiaçı və elmi seminar üzvü olmayan digər iştirakçılar iclas zalını tərk etdikdən sonra elmi seminarın üzvləri dissertasiyaya dair yekun müzakirə aparırlar;

27.9. Elmi seminarda dissertasiya və avtoreferatın "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin dissertasiyaya və avtoreferata dair tələblərinə uyğun tərtib edilməsinə və dissertasiyada şərh olunan elmi nəticələrin alınmasında iddiaçının konkret şəxsi iştirakına, tədqiqat nəticələrinin dürüstlük dərəcəsinə, onların yeniliyi və elmi-praktiki əhəmiyyətinə, dissertasiyanın müvafiq ixtisasa uyğun gəlməsinə, iddiaçının dərc olunmuş işlərində dissertasiya materiallarının əks etdirilməsinə, avtoreferatın dissertasiyaya uyğunluğuna münasibət bildirilir;

27.10. Müzakirənin sonunda dissertasiyanın müdafiəyə tövsiyə edilib-edilməməsinə dair gizli səsvermə keçirilir;

27.11. Gizli səsvermənin keçirilməsi üçün açıq səsvermə əsasında sadə səs çoxluğu ilə üç nəfər elmi seminar üzvündən ibarət hesablama komissiyası yaradılır;

27.12. Hesablama komissiyası tərəfindən elmi seminar üzvlərinə iştiraketmə vərəqində (Əlavə 2.1) imza etmək şərti ilə müvafiq formada hazırlanmış bülletenlər (Əlavə 2.2) verilir;

27.13. Paylanmamış bülletenlər səsvermədən öncə sayılır, üzərində "Paylanmamışdır" sözü yazılır və bu barədə qeyd hesablama komissiyasının protokoluna daxil edilir;

27.14. Səs verən elmi seminar üzvü dissertasiyanı müdafiəyə tövsiyə etdikdə bülletendə "Razı deyiləm", tövsiyə etmədikdə isə "Razıyam" sözlərinin üstündən xətt çəkir və bülleteni şəffaf səsvermə qutusuna salır;

27.15. Hesablama komissiyasının üzvləri səsvermə qutusunu açır, bülletenləri sayır və səsvermənin nəticələrinə dair protokol (Əlavə 2.3) tərtib edirlər;

27.16. Səsvermənin nəticəsini müəyyən etmək mümkün olmadığı və ya “Razıyam” və “Razı deyiləm” sözlərinin hər ikisi saxlanılmış və ya pozulmuş bülletenlər etibarsız sayılır və bu barədə qeyd hesablama komissiyasının protokolunda qeyd aparılır;

27.17. Gizli səsvermə nəticəsində etibarlı bülletenlərin sayı üçdən az olduqda səsvermənin ümumi nəticəsi etibarsız sayılır və səsvermə yenidən keçirilir;

27.18. Hesablama komissiyasının protokolu iclasda iştirak edən elmi seminar üzvlərinin sadə səs çoxluğu ilə açıq səsvermə yolu ilə təsdiq edilir. Səsvermə qutusundan çıxan bütün bülletenlər protokola əlavə edilir;

27.19. Hesablama komissiyasının protokolu hər hansı səbəbdən təsdiq edilmədikdə yeni bülletenlər hazırlanır və elmi seminarda yenidən gizli səsvermə keçirilir;

27.20. Gizli səsvermə əsasında səsvermədə iştirak edən seminar üzvlərinin azı üçdə ikisi iddiaçının fəlsəfə doktoru və ya elmlər doktoru dissertasiyasının müdafiəyə buraxılmasının lehinə səs verdikdə səsvermənin nəticəsi müsbət hesab edilir;

27.21. Səsvermənin nəticəsi əsasında elmi seminar dissertasiyanın müdafiəyə tövsiyə edilib-edilməməsinə dair qərar qəbul edir;

27.22. Elmi seminar qərar qəbul etdikdən sonra iddiaçı iclas zalına dəvət edilir, səsvermənin nəticəsinə dair elmi seminarın qərarı elan olunur və seminarın iclası bitir.

28. Elmi seminarın protokolunda elmi seminar üzvlərinin adı, soyadı, atasının adı, ixtisasının şifri və adı, elmi dərəcəsi, elmi adı, iş yeri və vəzifəsi qeyd edilir.

29. Elmi seminarın protokolunda dissertasiyanın elmi seminarın qərarına müvafiq olaraq müdafiəyə tövsiyə edilib-edilməməsi əsaslandırılır və səsvermənin nəticəsi göstərilir.

30. Elmi seminarın protokolu iclasın sədri və katibi tərəfindən imzalanır, onların imzası təşkilatın elmi katibi tərəfindən müvafiq qaydada təsdiq olunur.

31. Elmi seminarın protokolu, elmi seminarın iclasında iştiraketmə vərəqi, elmi seminarda gizli səsvermənin keçirilməsinə dair hesablama komissiyasının protokolu, bülletenlər, dissertasiya işinə verilmiş rəylər və elektron daşıyıcıda elmi seminarın gedişinin videoçəkilişi ilə birlikdə elmi seminarın keçirildiyi tarixdən bir ay müddətinədək dissertasiya şurasına təqdim edilir.

32. Elmi seminarda dissertasiyaya dair iradların qısa zamanda (on günədək) aradan qaldırılması mümkün olduğu halda, avtoreferatın Komissiyanın müəyyən etdiyi siyahı üzrə zəruri ünvanlara göndərildiyi tarixədək dissertasiyada qismən düzəlişlər etməyə icazə verilir. Bu zaman iradların aradan qaldırılması haqqında rəyçilərin təkrar rəyləri elmi seminara təqdim olunmalıdır.

33. Elmi seminarın fəaliyyətinin təşkili ilə bağlı bu Qayda ilə tənzimlənməyən digər məsələlər "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Əsasnaməsi" və "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə" ilə tənzimlənir.

**Əlavə 2.1**

________________________________ Dissertasiya şurasının ___________________________ixtisasında
(AAK-da dissertasiya şurasının qeydiyyat nömrəsi) (ixtisasın şifri və adı)

elmi seminarının __________________ tarixli iclasında (________________)
(gün, ay, il) (iclas protokolunun nömrəsi)

# İŞTİRAKETMƏ VƏRƏQİ

_______________________________________________________________________________
(iddiaçının adı, atasının adı, soyadı)

________________________________________________________________________ mövzusunda
(dissertasiyanın mövzusu)

__________________________________________________________________________ ixtisasında
(ixtisasın şifri və adı)

_____________________ elm sahəsi üzrə ________________________ elmi dərəcəsini almaq üçün
(elm sahəsinin adı) (fəlsəfə doktoru və ya elmlər doktoru)

təqdim etdiyi dissertasiya işinin müzakirəsinin keçirildiyi iclasda elmi seminar üzvlərinin iştirakı:

| Sıra nömrəsi | Adı, atasının adı, soyadı | Elmi dərəcəsi, elmi adı, elmi seminarda təmsil olunduğu ixtisasın şifri | İclasda iştirakı (imza) | Bülleten alması (imza) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |

Elmi seminarın katibi ______________ ___________________________________
(imza) (elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

M.Y. Tarix

Qeyd:
1. Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə hər iki ixtisas qeyd edilir;
2. Cədvəldə siyahının əvvəlində elmi seminarın sədri və elmi katibi, sonra isə əlifba sırası ilə digər üzvləri haqqında məlumat verilir;
3. İddiaçı elmi seminarın üzvü olduqda onun adı siyahıya daxil edilmir;
4. Elmi seminarın elmi katibinin imzası elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin elmi katibi tərəfindən təsdiqlənir və möhürlənir.

**Əlavə 2.2**

______________________________ Dissertasiya şurasının ______________________ixtisasında elmi
(AAK-da dissertasiya şurasının qeydiyyat nömrəsi) (ixtisasın şifri və adı)

seminarının ____________________________ tarixli iclasında (_______________)
(gün, ay, il) (iclas protokolunun nömrəsi)

_____________________________________________________________________________________
(iddiaçının adı, atasının adı, soyadı)

_________________________________________________________________________ mövzusunda
(dissertasiyanın mövzusu)

______________________________________ixtisasında ______________________ elm sahəsi üzrə
(ixtisasın şifri və adı) (elm sahəsinin adı)

___________________________________ elmi dərəcəsini almaq üçün təqdim etdiyi dissertasiya işinin
(fəlsəfə doktoru və ya elmlər doktoru)

müzakirəsinə dair:

## SƏSVERMƏ BÜLLETENİ

| | |
|---|---|
| Dissertasiya müdafiəyə tövsiyə edilsin | Razıyam |
| | Razı deyiləm |

M.Y.

Qeyd:

1. Bülletenlər imzalanmır, elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin möhürü ilə təsdiqlənir;
2. Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə hər iki ixtisas qeyd edilir;
3. Razı olduqda “Razı deyiləm”, razı olmadıqda isə “Razıyam” sözlərinin üstündən xətt çəkilir;
4. “Razıyam” və “Razı deyiləm” sözlərinin hər ikisi saxlanılmış və ya pozulmuş bülletenlər etibarsız sayılır.

**Əlavə 2.3**

______________________________ Dissertasiya şurasının
(AAK-da dissertasiya şurasının qeydiyyat nömrəsi)

_________________________________________ elmi seminarında gizli səsvermənin keçirilməsi üçün
(ixtisasın şifri və adı)

yaradılmış hesablama komissiyasının ____________________ tarixli
(gün, ay, il)

# PROTOKOLU № _____

Hesablama komissiyasının tərkibi

1. ____________________________________________________________________________________
(adı, atasının adı, soyadı)

2. ____________________________________________________________________________________
(adı, atasının adı, soyadı)

3. ____________________________________________________________________________________
(adı, atasının adı, soyadı)

Hesablama komissiyası _____________________________________________________________________
(iddiaçının adı, atasının adı, soyadı)

___________________________________________________________________________ mövzusunda
(dissertasiyanın mövzusu)

____________________________________ ixtisasında ___________________________ elm sahəsi üzrə
(ixtisasın şifri və adı) (elm sahəsinin adı)

___________________________________ dissertasiyasının müdafiəyə tövsiyə edilməsinə dair keçirilən
(fəlsəfə doktoru və ya elmlər doktoru)

səsvermə zamanı səsləri hesablamaq üçün seçilmişdir.

Elmi seminarın tərkibi _____ nəfərdən ibarət təsdiq edilmişdir.
(sayı)

Elmi seminarın tərkibinə əlavə olaraq _____ nəfər daxil edilmişdir.
(sayı)

Elmi seminarın iclasında _____ nəfər iştirak etmişdir:
(sayı)

– elmi seminar üzvü _____ nəfər (onlardan _____ nəfər elmlər doktoru).
(sayı) (sayı)

**Əlavə 2.3**

Paylanmış bülletenlərin sayı _____ ədəd
(sayı)

Paylanmamış bülletenlərin sayı _____ ədəd
(sayı)

Səsvermə qutusunda aşkar edilən bülletenlərin sayı _____ ədəd.
(sayı)

Elmi seminar üzvlərinin gizli səsverməsinin nəticəsi:

Lehinə ___________ səs
(sayı)

Əleyhinə __________ səs
(sayı)

Etibarsız hesab edilmiş bülletenlərin sayı ______________
(sayı)

İddiaçı ________________________________________________________________________
(iddiaçının adı, atasının adı, soyadı)

_____________________________________________________________________ mövzusunda
(dissertasiyanın mövzusu)

_________________________________ ixtisasında _________________________ elm sahəsi üzrə
(ixtisasın şifri və adı) (elm sahəsinin adı)

____________________________________ dissertasiyasının müdafiəyə tövsiyə edilməsinə
(fəlsəfə doktoru və ya elmlər doktoru)

dair gizli səsvermənin nəticəsi ______________ hesab edilir.
(müsbət və ya mənfi)

Hesablama komissiyasının sədri ______________ ______________________________________
(imza) (adı, atasının adı, soyadı)

Komissiya üzvləri ______________ ______________________________________
(imza) (adı, atasının adı, soyadı)

______________ ______________________________________
(imza) (adı, atasının adı, soyadı)

Qeyd:
Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə hər iki ixtisas qeyd edilir.